# BQXK-nin avtomobillərinin Xankəndidən Laçın istiqamətinə maneəsiz keçidi təmin edilib






Dekabrın 28-də aksiya iştirakçıları Beynəlxalq Qırmızı Xaç Komitəsinə (BQXK) məxsus avtomobillərin Xankəndidən Laçın istiqamətinə maneəsiz keçməsinə şərait yaradıblar.

AZƏRTAC xəbər verir ki, Xankəndidən Laçın istiqamətinə doğru hərəkət edən BQXK-yə məxsus üç avtomobilin aksiya keçirilən ərazidən keçidi təmin olunub. Qeyd edək ki, bu, humanitar məqsədli maşınların keçidi üçün heç bir məhdudiyyətin olmadığını göstərir.

---

Azərbaycan.- 2022.- 29 dekabr.- S.14.